B.Ə.Budaqov, Q.Ə.Qeybullayev

# QARABAĞIN ETNİK MƏSKUNLAŞMA TARİXİ VƏ TOPONİMLƏRİ



B.Ə.Budaqov, Q.Ə.Qeybullayev

# QARABAĞIN ETNİK MƏSKUNLAŞMA TARİXİ VƏ TOPONİMLƏRİ

Az-335263

AMEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu Elmi Şurasının 24 noyabr 2022-ci il tarixli qərarpı ilə (1 saylı Protokol) çapa təqdim olunmuşdur

Azərbaycan milli kitabxanası

Bakı – 2022

Baş redaktor: coğrafiya elmləri doktoru, dosent Z.N.Eminov
Elmi redaktoru: coğrafiya üzrə fəlsəfə doktoru M.Ə.Abbasova

Rəyçilər: coğrafiya elmləri doktoru, professor T.G.Həsənov
coğrafiya üzrə fəlsəfə doktoru N.Q.Babayev

UOT № 913(479.24). Qarabağın etnik məskunlaşma tarixi və toponimləri. Bakı, "Region Press" MMC, 2022, 468 səh.

Oxuculara təqdim olunan monoqrafiyada Azərbaycanın tarixi-coğrafi cəhətdən ayrılmaz tərkib hissəsi olan Qarabağın tarixi-etnik məskunlaşması və toponimikası məsələləri öyrənilir. Kitabda uzun tarixi dövrlərdə Qarabağda baş verən etnik proseslər, məskunlaşma və miqrasiya məsələləri işıqlandırılır. Kitab toponimika, əhali coğrafiyası, demoqrafiya, tarixi coğrafiya ilə məşğul olan elmi işçilər, ali məktəblərin tələbələri (bakalavr və magistrlər) və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

UDC: № 913: 479.24). History of ethnic settlement and toponyms of Karabakh. Baku, "Region Press" MMC 2022, 468 p.

In the monograph presented to the readers, the issues of historical-ethnic settlement and toponymy of Karabakhh, which is an integral part of Azerbaijan from historical and geographical point of view, are studied. The book sheds light on ethnic processes, settlement and migration issues that took place in Karabakh during long historical periods. The book is intended for scientific workers engaged in toponymy, population geography, demography, historical geography, students of higher schools (undergraduates and masters) and a wide readership.

ISBN – 9 7 8 - 9 9 5 2 - 5 6 1 - 1 2 - 8

© "Region Press" MMC, 2022

# M Ü N D Ə R İ C A T

**Əzəli Azərbaycan torpaqları** .......... 5
**Ön söz əvəzi** .......... 7
**G İ R İ Ş** .......... 9

**I HİSSƏ**
**YUXARI QARABAGIN ETNİK VƏ SİYASİ TARİXİNƏ DAİR**

**I FƏSİL. YUXARI QARABAĞDA ERAMIZDAN ƏVVƏLƏ AİD YERLİ TÜRK TAYFALARI** .......... 24
Albanlar .......... 26
Saklar .......... 52
Basianlar (Basinlər) .......... 75
Utilər .......... 76
Qarqarlar .......... 80
**II FƏSİL. ERAMIZIN I MİNİLLİYİNİN I YARISINDA QARABAĞA GƏLMIŞ TÜRK TAYFALARI**
Dondarlar .......... 89
Peçeneqlər .......... 92
Qıpçaqlar .......... 98
Aranlar .......... 104
Kataklar .......... 108
Xoroslar (Goruslar) .......... 108
Hind-Avropa dil ailəsinə aid xalqlar .......... 111
İran dilli tayfalar .......... 111
Parslar .......... 112
Yunanlar .......... 112
**III FƏSİL. ERAMIZIN I MİNİLLİYİNİN II YARISINDA QARABAĞA GƏLMIŞ TÜRK TAYFALARI**
Xəzərlər .......... 114
**IV FƏSİL. ERAMIZIN II MİNİLLİYİNİN ƏVVƏLLƏRİNDƏ QARABAĞA GƏLMIŞ TÜRK TAYFALARI**
Oğuzlar .......... 116
Qacarlar .......... 116

Monqollar ........ 117
Başqa tayfalar. Abdallar ........ 117
Quşçular ........ 118
Hunlar ........ 118
Muğanlılar ........ 118
Uzlar ........ 119
Kataklar ........ 119
Qaramanlılar ........ 120
Çinli tayfası ........ 121
Qarabağ elləri ........ 123
**V FƏSİL. QARABAĞIN ALBAN ƏRAZİSİ OLDUĞUNU GÖSTƏRƏN FAKTLAR**
Tarixi həqiqətlər ........ 127
Yuxarı Qarabağın nahiyələri ........ 135
Vənənd nahiyəsi ........ 140
Zarıs nahiyəsi ........ 141
Keştas nahiyəsi ........ 141
Dizak nahiyəsi ........ 141
Talış nahiyəsi ........ 142
Gülüstan ........ 142
Xaçın nahiyəsi ........ 142
Celaberd nahiyəsi ........ 142
**VI FƏSİL. QƏDİM ERMƏNİ DİLİNDƏ TÜRK MƏNŞƏLİ SÖZLƏR** ........ 145
**VII FƏSİL. ERMƏNİLƏRİN YUXARI QARABAĞDA MƏSKUNLAŞMASI** ........ 165

## II HİSSƏ
## QARABAGIN İZAHLI TOPONİMİYA LÜĞƏTİ

Səhifə 180-436
**Hərflərin səhifələri** ........ 437
**Ədəbiyyat** ........ 438-459
Əlavələr ........ 460-468



# ƏZƏLİ AZƏRBAYCAN TORPAQLARI

Azərbaycanın əlverişli təbii-coğrafi şəraiti ilkin insan qəbilələrinin də məskunlaşmasına imkan vermişdir. Dağlarda olan mağaralar yaşayış yerləri kimi seçilir, meşələr, kolluqların qida ehtiyatlarından istifadə edilir, şirin su mənbələri olan çaylar, göllər, bulaqların ətrafı yerləşmə yerləri kimi seçilirdi.

İqlimin isti və mülayim şəraitində açıq havada, soyuq dövrləri mağaralarda keçirən insanlar üçün Qarabağ bölgəsi də əsas cəlbedici ərazilər sayılırdı. Məhz buna görə burada yerləşən Azıx mağarası ən qədim insan məskənlərindən biri kimi məlumdur. Artıq burada bir neçə milyon il əvvələ aid yaşayış yerləri müəyyən edilmişdir.

Qarabağ insanların yaşadığı ilkin ərazilərə aid olduğuna görə burada ilkin cəmiyyət formaları olan dövlətlər mövcud olmuşdur. Əlverişli iqlim və relyef şəraiti ilə yanaşı, yerləşmə mövqeyinə görə də daim ətraf ərazilərdə yaşayan insanları, onların cəm halında olduğu dövlətləri cəlb etmiş, qanlı müharibələr, istilalar, qırğınlar meydanına çevrilmişdir. Ona görə yerli əhali yadellilərə qarşı mübarizə aparmaq, dayanmaq, mövcud olmaq, nəsilləri yaşatmaq üçün mübarizə aparmağı əsas vəzifə hesab edirdilər.

Məhz bu amil əsasında Qarabağda, ona yaxın olan ərazilərdə yerləşən insanlar Aranda, Naxçıvanda, Zəngəzurda, Gəncəbasarda, Arazın o tayında tarix boyu istilaçılara qarşı dayanmış, mübarizə aparmış, mövcudluğunu qoruyub saxlamışdır.

B.e.ə. IV əsrdən eramızın IV əsrinə qədər bu ərazilərdə mövcud olmuş Qafqaz Albaniyası ərəblərin yürüşü ilə süqut etdi. Lakin bu ərazilərdə məskunlaşan türkdilli tayfalar islamı qəbul etmiş, ərəblərin hakimiyyəti dövründə də mövcudluğunu qoruyub saxlaya bildi. Əhali dini etiqadı ilə yanaşı, dilinin milliliyini də qoruyurdu.

# II HİSSƏ

# QARABAĞIN İZAHLI TOPONİMİYA LÜĞƏTİ



= A =

**ABACUR** - Yuxarı Qarabagın Xaçın nahiyəsində kənd adı [*Gəncə-Qarabağ.., (1727), 2000, s. 344*].

**ABANT** - V-VII əsrlərdə Albaniyanın Arsak əyalətində mahal adı [*Albaniya tarixi, 1 kitab, 10-cu fəsil*]. Ermənicə yazılışda əvvəlinə "h" səsinin əlavəsi ilə Habant kimidir. Albaniya ərazisində erkən orta əsrlərdə iki Abant vardı. Biri Alazanın yuxarı axınında, onun Lonati çayı ilə birləşdiyi yerdə çay adıdır. B.e.ə. 65-ci ildə Roma ordusu ilə Alban ordusu arasında qanlı vuruşma bu çayın sahilində baş vermişdir [*Plutarx. Pompey, 35; Dion Kassi, XXXVII, 36*]. Gürcüstanın Telavi rayonunda olan bu çayın adı indi də qalmaqdadır - Abant adlanır. Digəri Yuxarı Qarabagda. Axırıncı dəfə 1727-ci ilə aid mənbədə təxminən Gədəbəy rayonu Şamlıq kəndinin yaxınlığında Avan kimi çəkilir. Qədim türk mənşəli Aban tayfa adındandır. Bax: Habant.

**ABDAL** - Yuxarı Qarabagın Vərəndə nahiyəsində kənd adı [*Gəncə-Qarabağ.., (1727), 2000, s. 396*]/ İndi Ağdam rayonunda Abdal-Gülablı adlanır. Yerli tam adı Abdal-Bulaqdır. Kənddə Xanımbulaq, Damcıbulaq, Bəybulaq və s. bulaqlar var. 1828-ci ildə İrandan gəlmə ermənilər yerləşdirildikdən sonra kənd Abdalaxpur adlanmışdır ki, bu da Abdal adından və ermənicə axpur "bulaq" sözündən ibarətdir. Erkən orta əsrlərdə Azərbaycanda yaşamış qədim türk mənşəli Abdal (Ağ hun) tayfasının adı ilə bağlıdır.

Laçın qəsəbəsinin qədim adı Abdallar, Laçın rayonu ilə Ordubad rayonu arasında Abdaldağ, Xocavənd rayonunda Bəhrəmli kəndi ərazisində Abdallar qışlağı, Ordubad və Tovuz rayonlarında Abdal dağ adları, orta əsrlərdə İrəvan əyalətində Abdal, Abdallar-Ulya, Abdaloğlu [*Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli.., 1998, s. 98*], Gürcüstanda Bolnisi rayonunda Abdal və Abdallar *[Budaqov B.*

**XOCA MƏRCANLI** - Şuşa şəhərinin nəsillərindən birinin adı.

**XOCALI** - Yuxarı Qarabagda inzibati rayon və onun mərkəzinin adı. Rayon oradakı Xocalı kəndinin adı ilə adlanmışdır. Orada üç Xocalı adlı kənd vardı. Xocalı (Şuşa rayonunda Malıbəyli kənd icmasında), Xocalı-Rus (Xankəndi kənd icmasında) və Xocalı-Türk (Malıbəyli kənd icmasında). Xocalı Qarabağda yaşamış elin adıdır. Mənşəcə eranın I minilliyinin I yarısında Yuxarı Qarabağda məskunlaşmış Qıpçaq tayfalarından (Et, Tuq, Vərəndə, Urus və s.) Kuç oymağının adından almışdır. Kuçeli (kuç tayfası) tayfa adının zaman keçdikcə təhrifidir. Mənbədə Xoçalu oymağının (maldar elin) Qarqar çayı sahilində yaşadığı göstərilmişdir [*Gəncə-Qarabağ əyalətinin icmal dəftəri (1593), 2010, 216*].

**XOCALI** - Füzuli rayonunda dağ adı.

**XOCALI** - Xocalı rayonunda Badara çayının sağ qolunun adı. Uz.-ğu 19 km-dir.

**XOCAVƏND** – Yuxarı Qarabağda inzibati rayon və onun mərkəzinin adı. Qədim adı Qaranlıq olmuşdur. Qaranlıq isə qədim türk dillərində kuren - "min alaçıqdan ibarət düşərgə" mənasındadır. Xocavənd orta əsrlərdə Qarabağda yaşamış bir maldar elin adıdır. Mənşəcə Şahsevən tayfa ittifaqına daxil olumşdur. XIX əsrin sonlarında burada Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1926-1927-ci illərdə Qarabağda yaşayan Xocavənd əhalisi Ağcabədi rayonu ərazisində də məskunlaşmışdır. Ona görə Ağcabədi rayonunda da Xocavənd adlı kənd vardır. Elin ikinci hissəsi qışlaqda məskunlaşmış və Ağcabədi rayonunda da Xocavənd adlı məntəqə yaratmışdır. "Qaranlıq" isə onların yaylaq yerləri idi. 1940-ci ildə A.F.Miyasnikovun təxəllüsü olan "Martuni" adı ilə adlanmışdır. 1991-ci ildə qədim adı bərpa edilmişdir [*Карашарлы А. Санитарно-бытовые очерки. 1928*].



**XOCAYURD** - Tərtər rayonu ərazisində yaylaq adı (skribnəsi). Qıpçaqların Kuç tayfasının adından və yurd - "yaylaq yerində maldar elin düşərgə yeri" sözlərindən ibarətdir. Yuxarı Qarabağda Qoçoqot, Mingəçevir su anbarından şimal-qərbdə Xocaşen (dağ silsiləsi) məntəqə adları ilə mənşəcə eynidir.

**XOCAYURD** – Tərtər (Ağdərə) rayonunda, Tərtər və Xaçın çaylarının suayrıcında dağ adı (hünd.-yü 2397 m).

**XONAŞEN** - XIX əsrdə Arsakda, Qarabağ düzündə 36 min desyatinlik ərazinin adı. Yuxarı Qarabağın Martuni rayonu ərazisinin qədim adıdır, bura XIX əsrin 80-ci illərinə qədər Xonaşen adlanmışdır [*Авдеев М. Мильско-Карабахская степь. Баку, 1930, s.130*]. B.e. VIII əsrinə aid Bizans mənbəyində "Hun ölkəsi" kimidir. Bizans tarixiçisi Feofan yazır ki, 624-cü ildə imperator İrakli Xəzərlərlə ittifaqa girmək üçün Albaniyada (Qarabağda) "Hun ölkəsi" adlı yerdə onların (sonra kəbirlilərin) başçısı ilə görüşmüşdür [*Феофан Исповедник. Летопись от Диоклетиана до царей Михаила.., Art. dr. s.53*]. Hun etnonimindən və qədim dillərində "şin" sözündən ibarətdir. Bu ərazi maldar ellər üçün qışlaq və əkin (məzrə) yerləri idi. Xunaşi adı isə erkən orta əsrlərdə Qarabağda məskunlaşmış hunların adından və qədim türk dillərində şin - "yaşayış yeri", "məskən" sözündəndir.

XIX əsrdə Gəncə qəzasının tədqiqatçısı *N.A.Abelov* yazır ki, maldar elin məntəqələri (yurd, oba, binə, qışlaq) oturaq məskəndən yaranan Şenlik adlanır [*Абелов Н.А. Экономический быт гос. крестьян Елизаветпольского уезда.., s. K*]. *L.Z.Budaqov [Будагов Л.З. Сравнительный словарь тюркско-татарских наречий, 1869, I, 673*] yazır ki, "şin" sözü türkcə "naselennıy" (məskunlaşmış, yerləşmiş) mənasındadır. Bu söz erməni dilinə keçərək "şen" formasını kəsb etmişdir. Gürcüstanda Xunev, Xuniya, Xunezazur adlarında xun etnonimi ilə eynidir. Ptolemey ( II əsr) də bu tayfanın adını Xun kimi çəkmişdir.

**XONAŞEN** - Xocavənd və Ağcabədi rayonlarının ərazisində çayın adı. Bax: Xunaşin.

**XORASULU** - Yuxarı Qarabağda İbrahim xana məxsus kəndlərdən birinin adı [*Qarabağnamələr. I kitab, 2006, 45*]. Xoruslu adından təhrifdir. Bax: Xoruzlu.

**XORUS** - Qarabağda məntəqə adı. Katiblərin səhvi üzündən IX əsr ərəb müəllifi *Məsudinin* məlumatında Dumis (bax), XIV əsr müəllifi *Həmdullah Qəzvininin* məlumatında Cuzbuk (bax) kimidir. Qədim türk mənşəli Korus tayfasının adındandır. Bax: Qoraz.

**XORUZLU** - Tərtər rayonunda kənd adı. Keçmişdə həm də Dəmirlər adlanmışdır. Qarabağda yaşamış Kəngərli tayfasının Xoruzlu oymağının adını əks etdirir. Tam adı "Xoruzlu Kəngərli"dir. Qarabağda yaşamış Kəngər elinin üç qolundan (Qızıllı Kəngərli, Pirhəsənli Kəngərli və Xoruzlu Kəngərli) birinin adını əks etdirir. Maldarlıqla məşğul olmuş bu el yayı Dəlidağda və Sarıtəpədə, Ləmbəran (Bərdə rayonu) kəndi yaxınlığındakı Tövlətəpədə keçirir, "Uzundərə" (Narlı dərə) adlı yerdə əkin əkirdi.

**XOŞ** - Arsakda kənd adı. Onun adı VII əsrə aid mənbədə çəkilir [*Albaniya tarixi, III -kitab, I fəsil*]. "Albaniya tarixi"nin başqa yerində bu ad Hoş kimidir [*Albaniya tarixi, III kitab, 6-cı fəsil*]. Türk dillərinin koş, "koç" sözündəndir.

**XOŞAMAN** - Qarabağın Keştək nahiyəsində kənd adı [*Gəncə-Qarabağ.., (1727), 2000, 378*]. Türk dillərində "koş" (köç) sözündəndir.

**XOŞƏNDAM** - Yuxarı Qarabağın Vərəndə nahiyəsində kənd adı [*Gəncə-Qarabağ.., (1727), 2000, 326*]. Monqol dilində xoşun, qoşun - "maldar elin düşərgəsi" və dam – "mal-qara üçün pəyə, tövlə" sözlərindən ibarətdir.

**XOŞMAN** - XVIII əsrdə Yuxarı Qarabağın Xaçın nahiyəsində Sayrıbulaq yaylağının digər adı [*Gəncə-Qarabağ.., (1727), 2000, 352*]. Bax: Sayrıbulaq.

**XOŞTAN** - Arsakda kənd adı [*Albaniya tarixi*]. "Türk dillərində koş (qoş) – "maldar elin yaylaqda düşərgəsi" və ton sözlərindəndir. Azərbaycanla Koşqutan (Qazax rayonu), Keşqutan (Qax rayonu), Keşqutan çayı (Quba rayonu), Xoşgədik (Laçın rayonu) adları vardır.

**XOŞTON** - Yuxarı Qarabağın Vərəndə nahiyəsində kənd adı [*Gəncə-Qarabağ.., (1727), 2000, 397*]. VII əsrə aid mənbədə Koston (yazılışı ermənicədir) formasındadır [*Albaniya tarixi*]. Türk dillərində köç (kosi), "köç" və ton - "uzunvari (uzunsov) təpə" sözlərindəndir.

**XOŞVAXT** - Yuxarı Qarabağın Dizaq nahiyəsində kənd adı [*Gəncə-Qarabağ.., (1727), 2000, 425*]. Koş və Dağ adıdır. Bax: Xoşvaxt.

**XOŞVAXT** – Xocavənd (Hadrut) rayonunda Cəbrayıl rayonu ilə sərhəddə dağ adı [*Məmmədov N.G. Azərbaycanın oronimiyası. 1999, 284*].

**XOTAVƏNG** - Yuxarı Qarabağda Alban xristian dini mərkəzlərindən birinin adı. XIII əsrə aid monastırdan və yardımçı binalardan ibarət kompleksdir. Xaçın knyazı Əsən Calalın arvadının dəfn olunduğu yerdir [*К.Гандзакеци. История Армении, 1976*].

**XOTAVƏNC** - Yuxarı Qarabağda Tərtər çayının sol sahilində, Vəng kəndinin ərazisində Alban xristian kilsəsinə məxsus məbədin adı [*К.Гандзакеци. История Армении, 1976, 71*]. Daduvənc də adlanır. Bax: Daduvəng.

**XOTAVƏNG** - Yuxarı Qarabağda Alban xristian dini mərkəzlərindən birinin adı. XIII əsrə aid monastırdan və yardımçı binalardan ibarət kompleksdir. Xaçın knyazı Əsən

Format: 60x84 $^{1}/_{16}$
29,5 ş.ç.v
Tiraj: 100

*«Region Press» MMC*

***Kitab hazır diapozitivlərdən çap olunub***